# “Kyokensei- Gənc müəllimlər üçün təlim” Yaponiya Dövlət Təqaüd Proqramı haqqında elan

**Proqrama sənəd qəbulu 22 yanvar, 2020-ci il tarixinədək davam edəcək!**
**Qeyd: 8 yanvar, 2020-ci il tarixində “Universitetlərin kataloqu” linkində yenilənmişdir. Artıq yeni linkdən məlumatlara nəzər sala bilərsiniz!**

## 1. ÜMUMİ MƏLUMATLAR

**(A) Təqaüd proqramının məzmunu：**
Bu proqram məktəblərdə tədris sistemi, təhsilin idarə olunması, tədris metodologiyası kimi mövzular üzrə Yaponiyanın müxtəlif universitetlərində təcrübə keçərək tədqiqat etmək istəyən gənc müəllimlər üçün Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyi tərəfindən təqdim olunan *1-1.5 illik* təqaüd proqramıdır. Təlim kursu ümumillikdə 1 il davam etsə də, təlim kursuna başlamazdan əvvəl yapon dili kurslarını təklif edən universitetlər də vardır ki, həmin kurslarda iştirak edən müəllimlərin təqaüd müddəti 1.5 il davam edir. Həmçinin, təlim kursu ilə parallel olaraq yapon dilini tədris edən universitetlər də vardır ki, həmin universitetlərdə təqaüd proqramı 1 il davam edir.

**Təlimat kitabçası:**
• İngilis dilində
• Yapon dilində

**(B) Təqaüd proqramının müddəti:**
2020-ci ilin oktyabr ayından (və yaxud təlim kursu başladığı müddətdən) 2021-ci ilin mart ayına kimi, hər universitetin təlim kursuna uyğun tələb olunan müddət. Təqaüd müddətinin uzadılması mümkün deyil.

**(C) Yaponiya höküməti tərəfindən maliyyələşdiriləcək hissə:**
・*Aylıq təqaüd* - 143.000 yapon yeni
・*İkitərəfli aviabilet*（Yaşadığı yerə ən yaxın beynəlxalq hava limanından və təlim keçəcəyi Yaponiya universitetinin yaxınlığında yerləşən beynəlxalq hava limanından aviabilet）
・*Təhsil haqqı* (universitetin qəbul imtahanları, universitetə qəbul və təhsil haqqı)

## 2. MÜRACİƏT ÜÇÜN TƏLƏBLƏR VƏ ŞƏRTLƏR:
・*Yalnız Azərbaycan vətəndaşı olan şəxslər.* Yapon vətəndaşları müraciət edə bilməzlər（digər ölkə vətəndaşları vətəndaşı olduqları ölkədəki Yaponiya səfirliyinə və ya konsulluğa müraciət edə bilərlər.）
・*2 aprel 1985-ci il tarixindən sonra anadan olan şəxslər* (35 yaşadək olan şəxslər)
・Universitet və yaxud müəllimlər üçün nəzərdə tutulmuş təlim məktəbini bitirib, 2020-ci il 1

oktyabr tarixinə qədər yaşadığı ölkənin ümumtəhsil müəssisələrində *5 ildən artıq tədris təcrübəsinə malik olan şəxslər*. **Qeyd:** Hal-hazırda universitet müəllimi kimi fəaliyyət göstərən şəxslərin müraciəti mümkün deyil.

・Yapon dilini öyrənməyə həvəsli olan şəxslər. Müraciətçilərin Yaponiyaya maraq göstərib, Yaponiyaya gəldikdən sonra ölkə haqqında bilikləri daha da dərinləşdirməyə maraqlı olmalarıdır. Yaponiyada tədqiqat işi ilə məşğul olub, Yaponiyanın həyat tərzinə uyğunlaşmaq bacarığı və istəyi.

・Fiziki və əqli cəhətdən tam sağlam şəxslər

・Müraciətçilər proqramda iştirak edib geri döndükdən sonra, yenidən müəllimlik fəaliyyətinə davam edərək ibtidai /orta məktəblərdə və ya müəllimlər üçün təlim məktəblərində dərs deməyi öhdələrinə götürürlər. Yaponiyada təhsil sahəsində tədqiqatların nəticəsinin Azərbaycan təhsil sistemində tətbiq edilməsi şərtlərdən biri olduğu üçün, bu şərtin yerinə yetirilməsi vacibdir. Proqram bitdikdən sonra Azərbaycana qayıdaraq yenidən müəllimlik fəaliyyətini bərpa edə bilməyəcək şəxslərdən Yaponiya Hökuməti tərəfindən təqdim olunmuş təqaüdün geri qaytarılması tələb oluna bilər. Bu şərtə əməl olunması vacibdir.

* Müraciətçilərə olan digər şərtlər haqqında daha ətraflı "Təlimat Kitabçası"dan baxa bilərsiniz (ingilis dilində, yapon dilində)

**3. SEÇİM PROSESİNİN GEDİŞATI:**

**Qeyd:** Qeyd olunmuş tarixlər dəyişə bilər və prosesin bütün detalları yalnız müraciətçilərə bildiriləcəkdir.

| | | |
|---|---|---|
| **22 yanvar (çərşənbə)** | • Sənədləri birbaşa Yaponiya Səfirliyinə gələrək təhvil vermək lazımdır.<br>• Sənədləri bu üsulla təhvil verməkdə çətinlik çəkən şəxslərdən bizimlə öncədən əlaqə saxlayıb məsləhətləşmələri xahiş olunur. | **Sənəd qəbulunun bitməsi** |
| Yanvarın sonları | Məlumat telefon və ya mail vasitəsilə bildiriləcəkdir. | Sənəd seçim mərhələsindən müvəffəq olmuş şəxslərin elan olunması |
| **4 fevral (çərşənbə)** | • *Tarix dəyişə bilər.*<br>• Saat daha sonra bildiriləcəkdir | Sənəd seçimi mərhələsindən keçən şəxslər üçün yazılı imtahan (*yapon dili və ingilis dili üzrə*)<br>Yapon dili imtahanı 2 saat, ingilis dili imtahanı isə 1 saat sürəcəkdir.<br>*Qeyd:* hər iki imtahanda iştirak vacibdir. |

| | | |
|---|---|---|
| 5 fevral | Tarix dəyişə bilər | Yazılı imtahanın nəticələrinin elanı (Müsahibə mərhələsinə keçən şəxslərin elan olunması) |
| **6** və ya **7 fevral** | Müsahibə səfirlikdə keçiriləcəkdir. Dəqiq tarix və saat müsahibə mərhələsinə keçəcək şəxslərə bildiriləcəkdir. | Müsahibə |
| Fevralın 1-ci yarısınadək | | Müsahibə mərhələsindən keçmiş şəxslərin elan olunması və 1-ci Seçim Mərhələsindən (Səfirlik mərhələsindən) keçmiş şəxslərin Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyinə təqaüd proqramına namizədliklərinin irəli sürülməsi |
| Mayın sonu- iyunun əvvəlləri | | Yaponiya seçim mərhələsindən müvəffəq olmuş şəxslərin elan olunması |
| İyul-avqust ayları ərzində | | Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyi ilə universitetlərin arasında tələbələrin qəbulu haqqında danışıqların keçirilməsi və universitetlərin müəyyənləşməsi |
| Sentyabr-oktyabr ayları ərzində | | Yaponiyaya yola düşmə (yola düşmə tarixi universitet tərəfindən müəyyən olunur) |

**4. TƏLƏB OLUNAN SƏNƏDLƏRİN SİYAHISI:** İbtidai və ya orta təhsil müəssisələrində çalışan müəllimlər üçün Təhsil Proqramı (Kyokensei)

***Müraciət üçün lazımı sənədlər aşağıdakılardır:*** (bütün sənədlərin ingilis və ya yapon dilində təqdim olunması vacibdir.)

**(A) Mütləq şəkildə lazım olan sənədlər:**
**• (1) Müraciət forması** (*1 nüsxə əsli, 1 nüsxə surəti*) (mütləq şəkildə 7 səhifənin hər birinin doldurulmasına diqqət yetirin)
※**Fotoşəkil –** "Müraciət formasına yapışdırmaq üçün lazımdır. *Şərtlər:* son 6 ay ərzində çəkilən fotoşəkil; *ölçü:* 4.5×3.5 sm; şəklin arxasında mütləq şəkildə ad, soyad və milliyətinizi yazmaq
※ **"Academic Background"- "Akademik təcrübəniz"** haqqında olan hissədə (səhifə 3) 11 illik məktəb təhsilinizi eyni məktəbdə alsanız da belə, bütün təhsilinizi ibtidai, ümumi orta və tam orta təhsil olmaqla 3 hissəyə bölüb yazmağınız gərəkdir.
Məsələn,

İbtidai təhsil (4 il): 1, 2, 3 və 4-cü siniflər
Ümumi orta təhsil (5 il): 5,6,7,8 və 9-cu siniflər

Tam orta təhsil 2 (2 il): 10 və 11-ci siniflər

**(2) Universitet Seçiminə Dair Müraciət Forması** (*yalnız 1 nüsxə əsli*)
※ ***"Universitetlərin kataloqu"*** (Yaponiyada Təhsil ala biləcəyiniz universitetlər barədə məlumatı bu linkdən ala bilərsiniz. Bu məlumat "Universitet Seçiminə Dair Müraciət Forması" sənədində universitet və kurs seçiminiz üçün vacibdir.
※ Əgər sizin seçdiyiniz ixtisas sizin *"Müraciət formasının" 20-ci punktunda* qeyd etdiyiniz "Tətqiqatla bağlı plan" hissəsində qeyd etdiyiniz mövzu ilə uyğun olmazsa, sizin müraciət sənədiniz universitet tərəfindən qəbul olunmayacaqdır.

**(3)Bitirdiyiniz ali tədris müəssisəsindən aldığınız diplom** (əgər diplomunuz ingilis və ya yapon dilində deyilsə, mütləq ingilis və ya yapon dilinə tərcümə olunmuş və notariusda təsdiq olunmuş versiyasını təqdim edin) – *1 nüsxə əsli, 1 nüsxə surəti*
※ Əgər sizin "Diplom" sənədinizin orijinalı ingilis dilindədirsə və sadəcə bir ədəd orijinal nüsxədirsə, orijinal sənədin sadəcə surətini təqdim edə bilərsiniz. Proses zamanı sizdən həmin surətin əsil olduğunu təsdiq etməyiniz tələb oluna bilər (universitet tərəfindən təsdiq olunması).
※ Təqdim olunan sənədlər geri qaytarılmadığı üçün yalnız bir nüsxə olan orijinal sənədinizi təhvil verməyin.

**(4) Qiymət vərəqəsi və ya Diploma əlavə** (əgər diplomunuz ingilis və ya yapon dilində deyilsə, mütləq ingilis və ya yapon dilinə tərcümə olunmuş və notariusda təsdiq olunmuş versiyasını təqdim edin) (*1 nüsxə əsli, 1 nüsxə surəti*)
※ Əgər sizin "Transcript" (Qiymət vərəqəsi) sənədinizin orijinalı ingilis dilindədirsə və sadəcə bir nüsxə orijinalı varsa, orijinal sənədin sadəcə surətinin təqdim edə bilərsiniz. Proses zamanı sizdən həmin sənədin surətinin təsdiq olunması tələb oluna bilər (universitet tərəfindən təsdiq olunması).
※ Təqdim olunan sənədlər geri qaytarılmadığı üçün yalnız bir nüsxə olan orijinal sənədinizi təhvil verməyin.

**(5) İş yerindən arayış** (*1 nüsxə əsli, 1 nüsxə surəti*) –
*Qeyd:* Arayışda sizin ən azı 5 il məktəbdə çalışdığınız, işə qəbul olduğunuz dəqiq tarix və digər lazımlı məlumatlar qeyd olunmalıdır.

**(6) İş yerindən tövsiyyə məktubu** *(1 nüsxə əsli, 1 nüsxə surəti)*
※ Qoşmadakı formatda və ya başqa formatda təqdim edə bilərsiniz.
※ Direktor, şöbə rəhbəri və ya birbaşa müdiriniz tərəfindən

**(B) Mütləq şəkildə lazım olmayan sənədlər:**
**(7) Dil biliyini təsdiqləyən sənəd** - (*surət - 2 ədəd*)
※ Məsələn, yapon dili- JLPT sertifikatı, ingilis dili- TOEFL və ya IELTS sertifikatı və əgər varsa digər dillər üzrə də sertifikatlar

**(C) QEYD:**
Aşağıdakı sənədi **yalnız səfirliyin Müsahibə mərhələsindən keçmiş şəxslər** təqdim etməlidir:

**Sağlamlıq haqqında arayış -** *(1 nüsxə əsli, 1 nüsxə surəti)*
※ Müvafiq formanı doldurmağınız vacibdir. Forma mütləq şəkildə ingilis dilində həkim tərəfindən doldurulmalı, sonda həkimin imzası və xəstəxananın möhürü olmalıdır.
※ Sənədin 7-ci bölməsində "Müraciətçiyi tövsiyə edirsinizmi?" hissədinə mütləq "YES" və ya "NO" qeyd olunmasına diqqət yetirin. Əks halda sizing sənəd qəbul olunmayacaqdır.

**5. ƏLAVƏ MƏLUMAT ÜÇÜN LİNK:**
**(A)** ***Keçmiş illərin seçim imtahanı sualları:*** (sadəcə nümunədir və məhz Kyokensei imtahanının sualları yoxdur. Lakin, eyni imtahan sistemi üzrə olan suallar olduğu üçün bu suallara nəzər salaraq imtahana hazırlaşa bilərsiniz).
https://www.studyinjapan.go.jp/en/planning/scholarship/application/examination.html

**(B) TEZ- TEZ SORUŞULAN SUALLAR** üçün bu linkə nəzər sala bilərsiniz.

**(C) Ətraflı məlumat üçün:**
Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyinin Mədəniyyət və Məlumat Şöbəsi
Əlaqə nömrəsi: +994 12 490 7818/19 (daxili nömrə: 2)
FAX: +994 12 490 7817/20
Email ünvanı: culture-info@bk.mofa.go.jp